**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**Q Ə R A R №05**

**Bakı şəhəri,** **24 noyabr 2011-ci il**

**Bərk məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətlərinin tariflərinin tənzimlənməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 26 dekabr 2005-ci il tarixli 341 nömrəli Fərmanına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2005-ci il tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na, Bakı Şəhər İcra Hakimiyyətinin müraciətinə və Tarif (qiymət) Şurasının 24 noyabr 2011-ci il tarixli iclasının protokoluna əsasən **QƏRARA ALIR**:

1. Bərk məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətlərinin tarifləri aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Xidmətlərin növü | İstehlakçı qrupları | Ölçü vahidi | Tariflər, (ƏDV ilə, manatla) |
|---|---|---|---|---|
| I. | Bərk məişət tullantılarının yığılması və daşınması | 1. Əhali | 1 nəfər | 0,30 (aylıq) |
| | | 2. Qeyri-əhali | 1 m3 | 10,00 |
| | | | 1 ton | 45,50 |
| II. | Bərk məişət tullantılarının zərərsizləşdirilməsi | | 1 m3 | 1,20 |
| | | | 1 ton | 5,50 |

2. Mülki qanunvericiliyə uyğun olaraq xidmət göstərən subyektlərlə istehlakçılar arasında xidmətlərin müqavilə əsasında həyata keçirilməsi təmin edilsin.

3. Bu qərarın xidmət göstərən subyektlərin təsərrüfat fəaliyyətinə təsirinin qiymətləndirilməsi və bərk məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətləri sahəsində səmərəli fəaliyyətin təşkili məqsədilə Şuranın müəyyən etdiyi iclaslarda müvafiq subyektlər tərəfindən hesabat təqdim edilsin.

4. Bu qərar 01 dekabr 2011-ci il tarixindən qüvvəyə minir və bu xidmətə dair əvvəllər qəbul edilmiş tariflər qüvvədən düşmüş hesab edilsin.

**Azərbaycan Respublikası**
**Tarif (qiymət) Şurasının sədri** **Şahin Mustafayev**